**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Peşə fəaliyyətinin ayrı-ayrı növləri və yüksək təhlükə mənbəyi ilə bağlı olan fəaliyyətlə məşğul olan şəxslərin dövlət narkoloji tibb müəssisəsində tibbi müayinədən (tibbi yoxlamadan) keçməsi Qaydasının təsdiq edilməsi haqqında" 2003-cü il 8 fevral tarixli 18 nömrəli, "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinə həqiqi hərbi xidmətə qəbul edilən və ya bu subyektlərdə xidmət keçən şəxslərin sağlamlığının yoxlanılması Qaydası"nın təsdiq edilməsi haqqında" 2004-cü il 24 noyabr tarixli 182 nömrəli və "Hərbi-həkim ekspertizası haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2008-ci il 29 fevral tarixli 59 nömrəli və "Bağlaşma əsasında həqiqi hərbi xidmətə daxilolmanın halları və Qaydası"nın təsdiq edilməsi haqqında" 2015-ci il 2 fevral tarixli 21 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Narkoloji xidmət və nəzarət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 26 aprel tarixli 514-VIQD nömrəli Qanununun tətbiqi və "Narkoloji xidmət və nəzarət haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 17 sentyabr tarixli 581 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 18 may tarixli 1682 nömrəli Fərmanının 1-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 8 fevral tarixli 18 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, 2, maddə 133) ilə təsdiq edilmiş "Peşə fəaliyyətinin ayrı-ayrı növləri və yüksək təhlükə mənbəyi ilə bağlı olan fəaliyyətlə məşğul olan şəxslərin dövlət narkoloji tibb müəssisəsində tibbi müayinədən (tibbi yoxlamadan) keçməsi Qaydası"nın 1-ci hissəsinə "məşğul olan şəxslər" sözlərindən sonra "("Narkoloji xidmət və nəzarət haqqında" Azərbaycan Respublikası Qanununun 24.4-cü maddəsində göstərilən şəxslər istisna olmaqla)" sözləri əlavə edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 24 noyabr tarixli 182 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, 11, maddə 967; 2016, 9, maddə 1585) ilə təsdiq edilmiş "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinə həqiqi hərbi xidmətə qəbul edilən və ya bu subyektlərdə xidmət keçən şəxslərin sağlamlığının yoxlanılması Qaydası"na aşağıdakı məzmunda 7-ci hissə əlavə edilsin:

"7. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinə qəbul edilən şəxslər və ya bu subyektlərdə həqiqi hərbi xidmət keçən hərbi qulluqçular "Narkoloji xidmət və nəzarət haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq icbari narkoloji müayinədən keçirilirlər.".

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 29 fevral tarixli 59 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, 2, maddə 134; 2010, 1, maddə 59; 2012, 12, maddə 1371; 2013, 10, maddə 1204, 12, maddə 1627; 2015, 5, maddə 659; 2016, 9, maddə 1585; 2017, 4, maddələr 620, 643, 7, maddə 1501, 12 (II kitab), maddə 2484; 2020, 4, maddə 496, 10, maddələr 1260, 1295, 11, maddə 1413; 2022, 4, maddə 401) ilə təsdiq edilmiş "Hərbi-həkim ekspertizası haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.3-cü bəndin ikinci abzasına "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi" sözlərindən sonra ", "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxs" sözləri əlavə edilsin;

3.2. 2.8-ci bənd üzrə:

3.2.1. birinci abzasa "müayinəyə və müalicəyə" sözlərindən sonra ", eləcə də icbari narkoloji müayinəyə" sözləri əlavə edilsin;

3.2.2. ikinci abzasa "(müalicəsi)" sözündən sonra ", eləcə də icbari narkoloji müayinəsi" sözləri əlavə edilsin;

3.3. 2.10-cu bəndin ikinci abzasında "(müalicədən)" sözündən sonra ", eləcə də icbari narkoloji müayinədən" sözləri əlavə edilsin;

3.4. 3.1-ci bəndin dördüncü abzasına "stasionar tibbi" sözlərindən sonra ", eləcə də icbari narkoloji" sözləri əlavə edilsin;

3.5. 6.1-ci bəndin üçüncü abzasına "stasionar tibbi müayinəyə" sözlərindən sonra ", eləcə də icbari narkoloji müayinəyə" sözləri əlavə edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 2 fevral tarixli 21 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, 2, maddə 211, 5, maddə 658; 2016, 8, maddə 1456, 9, maddə 1585; 2017, 4, maddə 620; 2021, 12, maddə 1542) ilə təsdiq edilmiş "Bağlaşma əsasında həqiqi hərbi xidmətə daxilolmanın halları və Qaydası"na aşağıdakı məzmunda 2.5-1-ci bənd və 3.7.2-1-ci, 3.9.4-1-ci yarımbəndlər əlavə edilsin:

"2.5-1. Bağlaşma əsasında həqiqi hərbi xidmətə könüllü daxil olanlar bağlaşma imzalanmazdan əvvəl bağlaşma bağladıqları dövlət orqanlarının tibb müəssisələri tərəfindən icbari narkoloji müayinədən keçirilirlər.

3.7.2-1. icbari narkoloji müayinənin keçirilməsi;

3.9.4-1. icbari narkoloji müayinənin keçirilməsi zamanı narkotik vasitələrin, psixotrop maddələrin və ya onların analoqlarının istehlak olunması aşkar edildikdə;".

**Əli ƏSƏDOV**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 9 avqust 2022-ci il
290